## 21-24 Mart 2013-cü il tarixində Türkiyənin Fəthiyə şəhərində keçirilmiş xalq mahnılarına həsr olunmuş Dördüncü Beynəlxalq Türk Mədəniyyəti Qurulatyı

Türkiyə Cumhuriyyətinin Muğla vilayətinin Fəthiyə şəhərində IV Uluslararası Türk Dünyası Kültür Qurultayı keçirildi. Fəthiyyə Bələdiyyəsi və Xalq Kültürü Araşdırmalar Qurumunun işbirliyi ilə təşkil olunan və 4 gün davam edən qurultaya 24 ölkədən 100-dən artıq elm adamı qatılmışdı.

Bu il dördüncüsü keçirilən Uluslararası Türk Kültür qurultayında Uygur Özerk bölgəsi, Ukrayna, Türkmənistan, Tuva (Rusiya), Tatarıstan, Özbəkistan, Makedoniya, Macarıstan, Krım, Qırğızıstan, Şimali Kipr Türk Cumhuriyyəti, Karakal Pakistan, Qaraçay Çərkəz, İraq, İran, Hollandiya, Gürcüstan, Qaqauzeli, Çuvaşıstan, Başqırdıstan, Bosniya Hersoq, Türkiyə və Azərbaycan təmsil olundu.

Azərbaycandan Qurultaya 17 nəfər iştirakçı qatılıb. Bunlardan beşi AMEA Folklor İnstitutunun əməkdaşlarıdır.

Qurultayda "Türkü, türkülərimiz, öykülərıylə türkülər" simpoziumu təşkil olunub və bəhs olunan mövzu ətrafında edilən çıxışlar böyük maraqla qarşılandı. Fəthiyyə Bələdiyyəsi Kültür Mərkəzi salonunda keçirilən qurultayın açılışında Fəthiyə kaymakamı Əkrəm Çalık, Fəthiyə Bələdiyyə başçısı Behçet Saatcı, Cumhuriyyət baş vəkili Ergün Tokgöz, Fəthiyə Əmniyyət müdiri Hüseyin Kocabıyık, Azərbaycan Ankara Böyükelçiliyi konsulu Şöhrət Mustafayev, Asiya Universitetinin rektoru Cəlil Nağıyev, qarnizon komandiri Jandarma minbaşı Faruk Akıncı, Fəthiyədə yaşayan yazıçılar, siyasi partiya və sivil toplum quruluşu təmsilçiləri və çox sayda dəvətlilər iştirak etdilər. Xalq Kültürü Araşdırmalar Qurumu (HKAK) sədri Prof.Dr. İrfan Nasrattinoğlu, toplantının bu coğrafiyada və Türkiyənin müxtəlif yerlərində qeyd edilməsinin vacibliyini vurğuladı: "Türk kültürü yoxdur, türk kültürü başqa kültürlərdən gəlmə kültürdür" şəklində söylənilən fikirlərlə Böyük Türk kültürünü yox etməyə çalışanlar vardır. Yabancı elm adamları tədqiq etdikləri araşdırmalarda öz kültürlərinin Türk kültüründən necə təsirləndiyini və nələrin alındığını çox gözəl bir şəkildə təsbit etmişlər".

Konya Selcuk Universitetindən Prof.Dr. Saim Sakaoğlu, Azərbaycan Ankara Böyükelçiliyi konsulu Şöhrət Mustafayev çıxışlarında türklərin ortaq dəyərlərini ön plana çıxararaq, gələcək nəsillərə daşımağın günün ən vacib məsələsi olduğunu

bəyan etdilər.

Fəthiyyə kaymakamı Əkrəm Çalıkın keçirilən bu qurultayın materiallarını, çıxışları sonradan bir kitab və CD şəklində hazırlanma tövsiyəsi mərasim iştirakçıları tərəfindən təqdirlə qarşılanıb və bunun faydalılığı qeyd olundu.

Fəthiyyə Bələdiyyə başkanı Behçet Saatcı türkülərin türk dünyasını birləşdirən körpü olduğunu dilə gətirərək, bu qurultayın Türkiyədə 800 mahal işərisindən məhz Fəthiyədə təşkil edilməsinin onlar üçün böyük şərəf sayıldığını dedi. Simpozium üzvləri adından danışan Azərbaycan Asiya Universitetinin rektoru Prof.Dr. Cəlil Nağıyevin çıxışı mərasimin ən çox diqqət çəkən məqamlarından idi.

Mən də öz adımdan Elmi İnkişaf fonduna belə vacib qurultayda iştirak etməyimə dəstək olduqları üçün dərin minnətdarlığımı bildirirəm.

AMEA Folklor İnstutunun Bölmə müdiri Dos.Dr. Nubar Həkimova.

23. 06. 2014.